


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 117 (24.004)

24 iyun 2022-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, bu ilin əvvəlində Moskvada Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması, münasibətlərin yeni mərhələsinə yaxşı start, müsbət ahəng, dinamika verib. Münasibətlərin gələcək inkişafı üçün bu əsas sənəd çoxillik, çox səmərəli əməkdaşlığın gözəl yekunudur. Çıxışda siyasi münasibətlərin, ali səviyyədə daimi dialoqun, bu il yaxşı dinamika nümayiş etdirən ticari-iqtisadi əlaqələrin, neqliyyat, energetika sahələrində, təbii ki, humanitar sahədə əməkdaşlığın inkişafından məmnunluq bir daha bildirilib.

***

Prezident İlham Əliyev həmin gün Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri, Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Adrian-İonuts Kesnoyunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı qəbul edib.



## SASMO beynəlxalq riyaziyyat olimpiadasında 73 şagird qalib olub

*Dünən muxtar respublika məktəbliləri arasında ilk dəfə keçirilən SASMO beynəlxalq riyaziyyat olimpiadasında qalib olan məktəblilərə medal və sertifikatlar təqdim olunub.*



Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov olimpiada qaliblərini təbrik edib. Bildirib ki, əldə olunan uğurlu nəticə muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının, yaradılan müasir tədris şəraitinin nəticəsidir.

Vurğulanıb ki, müxtəlif olimpiadaların keçirilməsi xüsusi istedadlı uşaqların üzə çıxarılmasında, şagirdlərdə fənlərə olan marağın artırılmasında, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrində mühüm rol oynayır. Olimpiadalarda iştirak şagirdlərdə özünə inam hissini gücləndirir. Qeyd olunub ki, 2021-2022-ci tədris ilində 2000-dən çox şagird muxtar respublika və respublika fənn olimpiadalarında, fənn müsabiqələrində iştirak edib. Olimpiadalarda 20 şagird qızıl, 35 şagird gümüş, 30 şagird isə bürünc medal, fənn müsabiqələrində isə 2 şagird qızıl, 3 şagird gümüş, 5 şagird bürünc medal qazanıb. Vurğulanıb ki, başa vurduğumuz son tədris ilində "Kenquru Beynəlxalq Riyaziyyat Olimpiadası" və "Amerikan Beynəlxalq Riyaziyyat müsabiqəsi" iştirakçılarından 29-u qızıl, 52-si gümüş, 80-nı isə bürünc medala layiq görülüb.

Bildirilib ki, muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında ilk dəfə olaraq SASMO beynəlxalq riyaziyyat olimpiadasının keçirilməsində məqsəd şagirdlərin riyaziyyat fənninə marağını artırmaq olub. Həmin olimpiadada iştirak etmək üçün muxtar respublikanın ümumtəhsil məktəblərinin 1-11-ci siniflərindən 297 şagird qeydiyyatdan keçib. Onlardan 73-ü qalib olub. Təhsil naziri SASMO beynəlxalq riyaziyyat olimpiadasında qalib gələn şagirdləri təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb.

Tədbirdə Təhsil Nazirliyi aparatının sektor müdiri Məmməd Bayramov çıxış edərək olimpiadanın əhəmiyyəti və təşkilati işlər barədə məlumat verib.

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin XI sinif şagirdi, SASMO beynəlxalq riyaziyyat olimpiadasında I yerin qalibi, gənc istedad Nicat Əlizadə muxtar respublikada şagirdlər üçün yaradılan müasir tədris şəraitinə görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə medal və sertifikatlar şagirdlərə təqdim olunub.

Qeyd edək ki, SASMO beynəlxalq riyaziyyat olimpiadasında 5 şagird qızıl, 14 şagird gümüş, 54 şagird isə bürünc medala layiq görülüb, digər iştirakçılara isə sertifikatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Yeni avtomat telefon stansiyası quraşdırılır



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə rabitə və yeni texnologiyalar sahəsinin müasir tələblər səviyyəsində qurulması istiqamətində bir sıra layihələr həyata keçirilir. Əhalinin rabitə xidmətlərinə olan tələbatının ödənilməsi məqsədilə yeni nəsil avtomat telefon stansiyaları quraşdırılır, mövcud avtomat telefon stansiyalarının internet tutumları artırılır, habelə bir sıra yerlərdə aztutumlu telefon stansiyaları yüksək montaj tutumuna malik yeni nəsil avtomat telefon stansiyaları ilə dəyişdirilir. Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda da əhalinin dayanıqlı rabitə, yüksəksürətli internet və digər xidmətlərlə təmin olunması istiqamətində işlər davam etdirilir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı fonunda əhalinin, həmçinin yeni inşa edilən fərdi yaşayış evlərinin artımı yeni abonentlərin rabitə və internet xidmətləri ilə əhatə olunmasını aktual edir. Cari ilin ötən dövrü ərzində əhalinin rabitə və internet xidmətlərinə olan tələbatının təmin edilməsi məqsədilə Naxçıvan şəhərinin Qaraçuq kəndində, Babək rayonunun Nehrəm qəsəbəsində və Şahbuz şəhərinin Bakı küçəsində müxtəliftutumlu yeni nəsil avtomat telefon stansiyaları sakinlərin istifadəsinə verilib. Hazırda kənddə bir avtomat telefon stansiyası fəaliyyət göstərir ki, bu da Şıxmahmud kəndində əhalinin, habelə yeni inşa edilən fərdi yaşayış evlərinin artımı nəticəsində yeni abonentlərin rabitə və internet xidmətləri ilə əhatə olunmasını zəruri edir. Həyata keçirilən məqsədyönlü tədbirlərin davamı olaraq Şıxmahmud kənd sakinlərinin rabitə və internet xidmətlərinə olan tələbatının ödənilməsi məqsədilə kənddə 256 nömrətutumlu yeni avtomat telefon stansiyasının qurulması istiqamətində müvafiq işlər görülür.

Belə ki, avtomat telefon stansiyasının yerləşdiyi ərazidə ilkin olaraq dəmir-betonlama işləri tamamlanıb. Həmçinin 40-a yaxın dəmir dirək basdırılır, 1 paylayıcı şkaf, 20 yeni abonent qutusu quraşdırılır, 150 metr fiber-optik xətt və 2700 metr müxtəliftutumlu kabellər çəkilir. Həmçinin yeni quraşdırılacaq telefon stansiyasının ətrafının mühafizə məqsədilə çəpərlənməsi də nəzərdə tutulub.

Yeni avtomat telefon stansiyası kənd sakinlərinin internet və rabitə xidmətlərinə olan tələbatının ödənilməsinə şərait yaradacaq.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada bu ilin 5 ayında əmək pensiyaçılarına və sığortaolunanlara 84 milyondan artıq vəsait ödənilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən cari ilin 5 ayı ərzində əmək pensiyalarına və onlara əlavə maddi yardıma 82 milyon 294 min manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərə 1 milyon 866 min manat olmaqla, ümumilikdə, 84 milyon 160 min manat vəsait yönəldilib.

Yaşa görə 50 milyon 152 min manat, sağlamlıq imkanlarının məhdudluğuna görə 21 milyon 719 min manat, ailə başçısını itirməyə görə pensiya alan şəxslərə isə 10 milyon 423 min manat vəsait ödənilib. Sığorta prinsipi ilə əmək pensiyası alan şəxslərə rübdə bir dəfə 50 manat, qulluq stajına görə əlavə alanlara isə əmək pensiyasının 10 faizi miqdarında maddi yardımın verilməsi təmin edilib. Məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərə ayrılan vəsaitin 135 min manatı əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, 589 min manatı hamiləliyə və doğuma görə, 332 min manatı uşağın anadan olmasına görə, 162 min manatı uşağa qulluğa görə, 648 min manatı isə dəfn üçün müavinətə yönəldilib.

Qeyd edək ki, əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilə qədər qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği və qulluq stajına görə əlavələr dövlət büdcəsi, digər bütün məbləğləri isə məcburi dövlət sosial sığortası vəsaitləri və sosial sığorta ehtiyatı hesabına verilir. Müavinətlər isə yalnız sığortaolunanlar tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqları hesabına maliyyələşdirilir. Müavinətlərdən əmək qabiliyyətini müvəqqəti itirilməyə görə müavinət sığortaolunanlara ilk 14 təqvim günü üçün sığortaedənin vəsaiti hesabına, qalan günlər üçün isə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilir.

Bu ilin əvvəlində əmək pensiyalarının artırılması və 2022-ci ildən başlayaraq pensiyaçılara maddi yardımın verilməsi bu qəbildən olan əhali qrupunun sosial müdafiəsini daha da gücləndirib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Ötən ay 49 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin fasiləsiz və təhlükəsiz təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən daxil olan müraciətlərə əsasən may ayı ərzində 49 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 48-i əhali,1-i isə qeyri-əhali abonentlərdir.

Qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılaraq mayın 4-də Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan "Qaz avadanlıqlarının istismarı və təmiri üzrə qazpaylayıcı stansiyaların operator peşəsi"nin ixtisasartırma kursuna 20 müdavim cəlb olunmuşdur.

Muxtar respublikada əhali qrupundan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün cari ilin mayında 60 mühafizə qutusu quraşdırılmışdır. Hesabat dövründə Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinə 104 nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaz tənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 862 çağırış daxil olmuşdur. Çağırışlara vaxtında gedilmiş, təbii qazın nəqli bərpa olunmuşdur.

May ayında muxtar respublika qaz şəbəkəsində 716 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq bu sızmalar aradan qaldırılmış, ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Tibb təhsili sahəsində əməkdaşlıq genişlənir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il iyunun 10-da "Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında" imzaladığı Sərəncama əsasən muxtar respublikada keçirilən I Beynəlxalq Tibbi Forum tibb təhsili sahəsində əməkdaşlıq baxımından da əhəmiyyətli və yaddaqalan olub. Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Tibb Universiteti, Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, həmçinin Türkiyənin Qaradəniz Texniki, İstanbul Yeditəpə universitetləri arasında əməkdaşlıq müqavilələri imzalanıb. Yeni tərəfdaşlıqlar muxtar respublikada yüksəkixtisaslı yerli tibbi kadr hazırlığına, Naxçıvan Dövlət Universitetində bu sahədə tədrisin keyfiyyətinin yüksəldilməsi, dünya tibb elminin yeniliklərinin təcrübə mübadiləsi yolu ilə öyrənilməsi və tətbiqi işinə öz töhfəsini verəcək.

Beynəlxalq Tibbi Forum çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə Ərzurum Atatürk Universiteti Xəstəxanası arasında da birgə əməkdaşlığa dair müzakirələr aparılıb. İkitərəfli görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev bildirib ki, yüksək dövlət qayğısı ilə əhatə olunan universitet Azərbaycan ali təhsil məkanında Tibb fakültəsi olan yeganə universitetdir. Vurğulanıb ki, tələbələr təcrübi dərslərini fakültədə yaradılan laboratoriyaların hesabına keçməklə bərabər universitetin xəstəxanasından, respublika xəstəxanalarından klinik baza kimi yararlanırlar. Qonaqlara Naxçıvan Dövlət Universitetinin xəstəxanası haqqında ətraflı məlumat verilib.

Ərzurum Atatürk Universiteti Regional Tədris və Tədqiqat Xəstəxanasının baş həkimi, professor Fuat Gündoğdu qeyd edib ki, rəhbərlik etdiyi xəstəxana 1 yanvar 1978-ci ildə fəaliyyətə başlayıb, 12 əyalətdə 4,5 milyon insana sağlamlıq xidməti göstərir. Bundan əlavə, sağlamlıq ocağı Sağlamlıq Elmləri Fakültəsi və Sağlamlıq Peşə Məktəbinin tələbələri və Tibb fakültəsinin ixtisas tələbələrinin təlim və təcrübələrinə də ev sahibliyi edir.

Universitet xəstəxanasında davam edən görüşdə Atatürk Universiteti Regional Tədris və Tədqiqat Xəstəxanasının tanıtım videoçarxı nümayiş olunub, Ərzurum Atatürk Universiteti Regional Tədris və Tədqiqat Xəstəxanası həkimlərinin müxtəlif mövzularda çıxışları dinlənilib.

Sonda müzakirələr aparılıb, Naxçıvan Dövlət Universiteti müəllimlərinin təklifləri dəyərləndirilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Naxçıvanın epiqrafik abidələrinə həsr olunmuş tədbir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə "Naxçıvanın epiqrafik abidələri" mövzusuna həsr olunmuş tədbir keçirilmişdir.*



Tədbirdə çıxış edən Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyev qeyd etmişdir ki, qədim və orta əsrlər dövrü tarix və mədəniyyətimizin öyrənilməsində bir sıra mənbələrlə, o cümlədən arxeoloji, etnoqrafik, numizmatik, antropoloji və sair qaynaqlarla yanaşı, tarixin köməkçi elmlərindən biri sayılan epiqrafika əsas yerlərdən birini tutur. İnsanların ən qədim zamanlardan, Mustye dövründən başlayaraq məskunlaşdığı Naxçıvan bölgəsi digər maddi mədəniyyət nümunələri ilə yanaşı, epiqrafik abidələrlə də çox zəngindir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli çıxış edərək qeyd etmişdir ki, Naxçıvan bölgəsi tarixin ayrı-ayrı dövrlərinə aid, müxtəlif əlifbalarla həkk edilmiş epiqrafik abidələrlə çox zəngindir. Burada arami əlifbasından tutmuş kiril əlifbasınadək müxtəlif əlifbalarla yazılmış daş sənədlərə – kitabələrə rast gəlinir. Naxçıvan bölgəsi müsəlman epiqrafikası abidələrinin zənginliyi cəhətdən Azərbaycanda ilk yerlərdən birini tutur. Bölgənin özündə isə bu abidələr Ordubad və Culfa rayonlarında daha geniş yayılmışdır.

Sonda mərkəzdə yaradılan kitab sərgiləri haqqında məlumat verilmişdir.

***Xəbərlər şöbəsi***

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 19 noyabr tarixli Sərəncamına əsasən hər il iyunun 24-ü Azərbaycanda Maşınqayırma Sənayesi İşçilərinin Peşə Bayramı kimi qeyd olunur.***



*24 iyun Maşınqayırma Sənayesi İşçilərinin Peşə Bayramıdır*

## Maşınqayırma sənayesi iqtisadi inkişafın əsasını təşkil edir

Azərbaycanda sənayeləşmə siyasətinin əsası ötən əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Həmin dövrdə neft maşınqayırma kompleksi, dərin özüllər, məişət kondisionerləri, elektron hesablama maşınları zavodları istifadəyə verilmişdir. Sənaye sahələrinin şaxələnməsi həyata keçirilərək neft maşınqayırması ilə yanaşı, dəzgahqayırma, elektrotexnika və elektronika, cihazqayırma, yol-inşaat maşınları və digər sahələr inkişaf etdirilmişdir.

Bu gün ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi ildən-ilə artmışdır. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İqtisadiyyatda əldə olunmuş makroiqtisadi sabitlik, dinamik iqtisadi artım və əhalinin sosial rifahının yüksəldilməsi sahəsində qazanılan uğurlar həyata keçirilən sistemli və ardıcıl fəaliyyətin nəticəsidir.

Ölkəmizin müasir sənayeləşmə hərəkatına öz töhfəsini verən muxtar respublikada dinamik inkişafı təmin edən başlıca amillərdən biri iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsidir. Artıq neçə ildir ki, özəl sektorun iqtisadiyyatda payı artır. Bu isə o deməkdir ki, muxtar respublikada iqtisadi inkişafın enerji sektorundan asılılığının azaldılması istiqamətində görülən işlər, həyata keçirilən uğurlu siyasət öz müsbət nəticələrini vermişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, keçid iqtisadiyyatı dövrünü uğurla başa vuran muxtar respublikada hazırda ümumi daxili məhsulun artımı, əsasən, özəl sektor hesabına formalaşır. 2022-ci ilin yanvar-aprel aylarında ÜDM-də özəl bölmənin payının 85,9 faizə yüksəlməsi də bunu təsdiq edir.

Bundan əlavə, sənaye sahələrində istehsalın həcminin əvvəlki ilin eyni dövründəkindən 1,6 faiz çox olması da muxtar respublika iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı həyata keçirilmiş tədbirlərin məntiqi nəticəsidir.

İqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm nəticələrindən biri muxtar respublikada sənaye potensialının son illərdə əhəmiyyətli dərəcədə güclənməsidir. Özəl sektorun davamlı inkişafına nail olmaq üçün muxtar respublikada sənayeləşmə siyasəti çərçivəsində rəqabət



və ixracyönümlü məhsullar istehsal edən müasir sənaye komplekslərinin yaradılması istiqamətində zəruri işlər görülmüşdür. "Gəmiqaya Sənaye Kompleksi", "Cahan Sənaye Kompleksi", "Naxçıvan Sement Zavodu", "Ləzzət Qida Sənaye", "Naxçıvan Duz İstehsalı Müəssisəsi", "Badamlı Mineral Sular Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətləri, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti, Naxçıvan Avtomobil Zavodu və digər müəssisələrin yaradılması muxtar respublika sənayesinin növbəti mərhələdə daha dərin şaxələndirmə siyasətinin həyata keçirilməsinə geniş imkanlar yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə 2022-ci ilin Naxçıvan Muxtar Respublikasında "Sənaye ili" elan edilməsi də məhz bu sahəyə göstərilən dövlət qayğısının növbəti təzahürüdür.

Muxtar respublikada maşınqayırma sənayesi də inkişafda olan sahələrdəndir. Maşınqayırma sənayesinin inkişafının əsas istiqamətlərindən biri də dövlət dəstəyinin genişləndirilməsidir. Bu baxımdan son illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən bu sahənin inkişafı məqsədilə 7 milyon manatdan artıq kredit ayrılmışdır. Göstərilən dövlət dəstəyi bu sahədə yeni çeşiddə məhsul istehsal etmək imkanını artırmışdır. Hazırda muxtar respublikada maşınqayırma sənayesində rəqabətqabiliyyətli məhsullar istehsal edilir. Muxtar respublikanın böyük sənaye müəssisələri arasında maşınqayırma sənayesi ilə məşğul olan Naxçıvan Avtomobil Zavodu əhəmiyyətli yerlərdən birini tutur. Zavodun əsası 2006-cı ildə qoyulub, 2009-cu ilin may ayında Pekində keçirilən Çin-Azərbaycan biznes-forumu çərçivəsində Naxçıvan Avtomobil Zavodu və Çinin "CHONGQING LIFAN INDUSTRY (GROUP) IMP. & EXP. CO., LTD." Avtomobil Korporasiyası arasında əməkdaşlıq sazişi imzalanmışdır. 2010-cu ildən istifadəyə verilən zavodun yaradılmasına müəssisənin daxili imkanları hesabına 2 milyon 800 min, Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə 1 milyon manat vəsait sərf olunmuşdur. 2017-ci ildə Naxçıvan Avtomobil Zavoduna avtomobil hissələrinin alınması, yığılması və satışına 1 milyon, 2020-ci ildə ehtiyat hissələrinin və avtomobillərin alınmasına 3 milyon manat kredit verilmişdir.

Bu günədək zavodda 6 mindən çox avtomobil istehsal olunmuşdur. İstehsal sahəsi, satış salonu, sınaq meydançası, avtomobil dayanacağı, anbar və inzibati binadan ibarət olan müəssisə indiyədək "Lifan 320", "Lifan 330", "Lifan 520", "Lifan 520İ", "Lifan 620", "Lifan 630", "Lifan 650", "Lifan 720", "Lifan 820", "Lifan X50", "Lifan X60", "Lifan X70", "Lifan 6401", "Lifan 6420", "Lifan 5028", "Lifan 1022", "Lifan 1025", "Lifan L7" olmaqla avtomobillərin istehsalını həyata keçirmişdir. Hazırda zavodun keyfiyyətinə və dözümlülüyünə görə flaqman modeli olan "Lifan 620" modelinin yeni dizayn ilə təchiz olunmuş "Lifan 650" və krossover sevənlər üçün xarici və daxili görünüşü yenilənmiş "Lifan X70", yeni brend olan FAW T-33 və FAW T-77 modelləri istehsal olunur.



Müəssisədə digər Changan T-3 (yük), Changan W-3 və Changan W-5 (minik) modelləri hazır gətirilərək satışı həyata keçirilir. Zavodda bu günədək 18 modeldə Lifan, 2 modeldə FAW avtomobilinin istehsalına nail olunmuşdur.

Naxçıvan Avtomobil Zavodu avtomobil sənayesində müasir dövrün ən aktual məsələsi olan elektriklə çalışan avtomobillər istehsal etmək məqsədilə cari ilin iyun ayında Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı ilə Çin Xalq Respublikasının "Lifan" korporasiyası arasında görüş keçirilmiş, Naxçıvan Avtomobil Zavodunda 2 növ elektrikli və 1 növ yanacaqla işləyən avtomobillərin istehsalı ilə bağlı anlaşma protokolu imzalanmışdır. Zavod fəaliyyəti dövründə sosial layihələrdə də yaxından iştirak etmiş, 2936-sı "Lifan 320" və 129-u "Lifan 330" modelləri olmaqla, 3065 avtomobil sağlamlıq imkanları məhdud şəxslər üçün istehsal edilmişdir. Müəssisədə indiyədək istehsal olunan 972 "Lifan 620" model avtomobilin 485-i taksi kimi xidmət göstərməkdədir.

İstehsal prosesində keyfiyyəti əsas götürən zavod 2019-cu ildən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının tərkibinə daxil edilmiş, istehsal olunan avtomobillərin "Cahan Motors" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomobil salonlarında da satışı təşkil olunmuşdur. 2019-cu ilin avqust-sentyabr aylarında Çinin "Lifan İndustrial Group", "FAW İndustrial Group" və digər böyük avtomobil istehsalçıları ilə danışıqlar aparılmış, əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi yolları müzakirə edilmişdir. Çinin "FAW İndustrial Group" avtomobil istehsalçısı ilə bağlanmış müqaviləyə əsasən zavodda yeni brend olan FAW avtomobillərinin istehsalına başlanılmışdır. Ötən dövrdə zavod tərəfindən 28 FAW markalı avtomobil istehsal edilərək satışa verilmişdir.

Həm mexaniki, həm də avtomat sürət qutusu ilə işləyən müxtəlif avtomobillər istehsal edən zavodun Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satış mağazaları, zavoddaxili servis, həmçinin Şərur və Culfa rayonlarında servis mərkəzləri fəaliyyət göstərir. Zavodda avtomobil sənayesində tətbiq olunan ən müasir dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun avtomobillər istehsal edilir. Bu illər ərzində satış və xidmət şəbəkəsi genişləndirilmiş avtomobillərin keyfiyyətinə verilən zəmanət müddəti avtomobildən asılı olaraq 2-5 il və ya 40-100 min kilometr edilmişdir. Onu da nəzərə almaq lazımdır ki, maşınqayırma sənayesinin davamlı şəkildə inkişafı yeni iş yerlərinin açılması deməkdir. Bu isə insanların məşğulluğunun təmin olunması, sosial vəziyyətlərinin yaxşılaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

*Peşə bayramlarını qeyd edən maşınqayırma sənayesi işçiləri bundan sonra da istehsal çeşidlərinin və həcminin artırılması, ixrac potensialının genişləndirilməsi məqsədilə daha səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# "Nuh diyarı – Naxçıvan" infoturunun iştirakçıları: "Naxçıvan zəngin turizm potensialına malik çox fərqli bir diyardır"

*İyunun 23-də infotur iştirakçıları səfər çərçivəsində Naxçıvanın bir sıra gəzməli-görməli yerlərində olublar. Qonaqlar əvvəlcə Şahbuz Dövlət Təbiət Qoruğu (Batabat) və Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinə səfər ediblər. Buranın əsrarəngiz təbiət gözəllikləri qonaqları heyran edib, turizm potensialı barədə dərin təəssürat yaradıb.*

Daha sonra qonaqlar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunmuş qadınların əl işlərindən ibarət səyyar sərgi-satış ilə tanış olub, hədiyyəlik əl işləri alıblar.

İştirakçılar "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanış olublar. Məlumat verilib ki, abidə Azərbaycanın orta əsrlər memarlığının nadir incilərindən biridir. Xüsusi quruluşda inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan sarayı orijinal memarlıq üslubu ilə seçilir. Qeyd edilib ki, Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə xatın



türbəsi 1186-cı ildə tikilib. Nəinki Azərbaycan, bütövlükdə, türk-islam memarlığında ən uca və incə kompozisiyalı türbə xalqımızın qadın adına və ülviyyətinə verdiyi yüksək dəyərin ifadəsidir.

Səfər çərçivəsində tur iştirakçıları Bayraq Meydanı və Muzeyi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzini ziyarət ediblər.

***Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri:*** – Naxçıvan zəngin turizm potensialı ilə seçilən məkandır. Burada turizmin inkişafı üçün müxtəlif istiqamətlər var. Naxçıvan Muxtar Respublikasının rəhbəri turizmin inkişafına xüsusi diqqət göstərir. Bunun da nəticəsi olaraq Naxçıvan həm daxili turizm bazarında, həm də regional və qlobal səviyyədə öz rəqabətqabiliyyətliliyini artırır. Burada ənənəvi turizm məhsulları ilə yanaşı, yeniliklər təklif edilir, xidmət səviyyəsi artırılır, kadrların peşəkarlıq səviyyəsinin artırılması istiqamətində işlər görülür.

Dövlət Turizm Agentliyinin və Naxçıvan Muxtar Respublikası Turizm Departamenti arasında illik fəaliyyət planları mövcuddur. Birgə fəaliyyətin nəticəsi olaraq Naxçıvanın turizm potensialı son illərdə beynəlxalq tədbirlərdə sərgilənir, nümayiş etdirilir, Naxçıvanın turizminə xüsusi marketinq dəstəyi göstərilir və bunlar öz effektini verir.



Əlbəttə ki, pandemiya dövründə turizm sahəsində müəyyən geriləmələr olub, lakin biz əminik ki, qısa zaman ərzində Azərbaycanın, Naxçıvanın turizm sahəsi yeni, daha üstün nəticələr nümayiş etdirməyə başlayacaq. Düşünürəm ki, çox uğurlu nəticələr əldə ediləcək.

***Sərxan Tahmaz – Türkiyə Səyahət Agentliyi Birliyinin media müdiri:*** – Dünyanın bir çox coğrafiyaları ilə yaxından tanış olsam da, Naxçıvana ilk dəfədir ki, səfər edirəm. Bu vaxta qədər Naxçıvan haqqında çox oxumuşam, çox eşitmişəm, amma onu yaxından görmək bu günə nəsib imiş. Başdan-başa təbiət muzeyi olan bu torpağın insanları da gülərüz və mehribandır. İki gün müddətində Naxçıvanda bir-birindən maraqlı və yaddaqalan anların şahidi olduq. Ekskursiyalarımız çərçivəsində rəngarəng fotoşəkillər çəkərək öz şəxsi media hesablarımızda izləyicilərimizlə bölüşdük. Həqiqətən, Naxçıvan bizim kimi bir çoxlarının marağını qazanmağa nail ola bilib. Media sahəsində 30 ilə yaxındır ki, fəaliyyət göstərən bir şəxs olaraq deməliyəm ki, əgər Naxçıvanın mövcud potensialı kifayət qədər təbliğ olunarsa, buraya gələn turistlərin, necə deyərlər, ardını kəsmək qeyri-mümkün olar. Bununla yanaşı, qeyd etməliyəm ki, istər siyasi müstəvidə, istərsə də bu və ya digər sahələrdə Azərbaycan və Türkiyə qardaşlığı bu gün bütün dünyanın diqqət mərkəzindədir. Tarix də sübut edir ki, hər iki qardaş ölkə bütün mürəkkəb, çətin proseslərin məngənəsində olduğunda belə heç zaman bir-birindən köməklərini əsirgəməyib. Bunu qardaş Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbənin timsalında da gördük, ötən zaman müddətində Türkiyənin bir çox regionlarında baş verən yanğın fəlakətindəki yardımda da bir daha şahid olduq. Hesab edirəm ki, hər iki ölkə arasında bu cür geniş əlaqələrin mövcudluğu gələcək dövrlərdə də özünü daha aydın göstərməklə bir çox uğurlara da imza atacaq. Son olaraq qeyd edim ki, Naxçıvanda şahid olduğum, gördüyüm hər bir şey xatirəmdə həmişəlik qalacaq anlardır. İnanıram ki, bundan sonra da Naxçıvana böyük həvəslə səfər etmək şansını əldə edəcəyəm.

***Javad Pahlevan Zadeh – Ərdəbil Səyahət Agentlikləri Assosiasiyasının sədr müavini:*** – Bu mənim Naxçıvana ikinci səfərimdir. Şəhərin təbiiliyi, təmizliyi, insanların səmimiyyəti, qonaqpərvərliyi məndə xoş duyğular yaratdı. Burada ziyarətgahlar, muzeylər, bu qədim yurd yerinin tarixini özündə əks etdirən möhtəşəm tarixi abidələr var. Diqqətimi cəlb edən əsas məqamlardan biri də Naxçıvanın tarixinin, mədəni irsinin qorunub saxlanmasına, mühafizəsinə və təbliğinə dövlət tərəfindən böyük qayğı göstərilməsidir. Bu, təqdirəlayiq haldır. Doğrudan da, yaşı minillikləri adlayan belə qiymətli abidələr əvəzolunmaz bir xəzinədir. Hər birinin bir-birindən gözəl və maraqlı tarixi var. Onların qorunub saxlanılması böyük vətənpərvərliyin, tarixə bağlılığın nişanəsidir. Gəzinti zamanı daha çox Ordubadın sirli-sehrli tarixi diqqətimi cəlb etdi. Şəhərin tarixiliyi insanı xəyalən başqa bir aləmə aparır. Hər tərəfdə təmizlik, abadlıq hökm sürür. Yaraşıqlı binalar, geniş yollar, bir sözlə, bu diyarın hər qarışı insanı özünə valeh edir.

***Seyedeh Safoura Razi Nejad – İran İslam Respublikasının Guilan Sağlamlıq Turizmi Mərkəzinin müdiri:*** – Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda olduğumuz bu iki gün bizlər üçün böyük önəm daşıdı. Bir turizm nümayəndəsi nöqteyi-nəzərindən mövzuya yanaşsaq, həm bir qonaq kimi burada olan turizm potensialı haqqında ətraflı məlumatlar qazanır, həm də qədim türk diyarı olan Naxçıvanın tarixi ilə yaxından maraqlanıb, tanış oluruq. Bildirmək istəyirəm ki, burada vaxtımız xeyli maraqlı və səmərəli keçir. İki gün ərzində Naxçıvanın yay mövsümünə uyğun olan turistik məkanlarına ekskursiyalar etdik, xeyli maraqlı və faydalı məlumatlar qazandıq. Bunlardan biri də bu gün səfər etdiyimiz təmiz havası və kəskin iqlimi ilə diqqəti cəlb edən Batabat yaylağı oldu. Bununla yanaşı, biz həm də səfərin ilk günündə



Azərbaycanın incisi sayılan Ordubad şəhərinə getdik. Oranın görkəmi, müasirliyi və turizm üçün əlverişli şəraiti insanın diqqətindən yayınmır. Naxçıvanda havanın bu qədər kəskin isti olması bir qədər insan üçün çətinlik yaratsa da, bizi yormur, səfərimizi xeyli maraqlı edir. Bundan başqa, mənəvi zövq alırıq, xatirə şəkilləri çəkərək səfərimizi əbədiləşdiririk. İlk dəfədir, səfər etməyimə baxmayaraq, bu diyar haqqında yüksək fikirlər qazandım, geniş məlumatlar əldə etdim. Ümid edirəm ki, Naxçıvana yenidən gəlmək şansını əldə edə biləram.

Qardaş Türkiyə Respublikasının media sahəsində uzun illərdir, fəaliyyət göstərən digər müsahibimiz ***Emin Fərid Uzun*** söhbət zamanı bildirdi ki, Naxçıvan, həqiqətən, zəngin coğrafi mühiti, füsunkar təbiəti ilə bura üz tutan hər bir kəsi özünə heyran qoyur: – İlk dəfədir, səfər etməyimə baxmayaraq, heç bir yadlıq və özgəlik hiss etmirəm. Düşünürəm ki, insanların istiqanlı olması, qonaqpərvərliyi bizdə bu cür müsbət təəssüratlar yaradır. Həqiqətən, bu vaxtacan Naxçıvan haqqında eşitdiyim gözəl fikirlərin əyani sübutunu burada olduğum iki gün müddətində daha yaxından gördüm, şahid oldum. Bu gün biz turumuzun ikinci gününə Batabat yaylağına səfər etməklə başladıq. Havanın bir qədər isti olmasına baxmayaraq, ekskursiyamız maraqlı və yaddaqalan oldu. Daha öncədən Azərbaycanın, o cümlədən Naxçıvanın kəskin, dəyişkən iqlimi haqqında eşitsəm də, ilk dəfədir, səfər etdiyim üçün onu hiss etmək məhz bu günə nəsib oldu. Hər tərəfdə



gedən tikinti-quruculuq, geniş yollar, müasir obyektlər və bunun kimi neçə-neçə maraqlı və gözəl proseslər bir daha bunu deməyə əsas verir ki, Naxçıvan, sözün əsl mənasında, geniş ekoturizm potensialına sahibdir. Əminəm ki, bizim bu səpkidəki səfərlərimiz bundan sonra da davamlı xarakter alacaq.

***Bahareh Habibzadeh – Ölkə kooperativlərinin idarəedici direktoru:*** – Bu, Naxçıvana ilk səfərimdir. Artıq iki gündür ki, Naxçıvanı addım-addım gəzirik. İstər müasir infrastruktur və xidmət şəraiti, istərsə də insanların qonaqpərvərliyi məni heyran etdi. Şəhər infrastrukturu elə qurulub ki, yolboyu nəzər saldıqca görürsən ki, heç bir nöqsan yoxdur. Bu şəhər haqqında çox eşitmişdim, amma eşitdiklərimdən daha da gözəldir. Ən əsası burada böyük inkişaf, müasirlik və tərəqqi var. Bu inkişaf və müasirliklə yanaşı, həm də şəhərin tarixi görkəmi qorunub saxlanılıb. Gəzinti zamanı bir çox abidələri ziyarət etdik. Məndən Naxçıvanı soruşsalar, onu "abidələr diyarı" adlandırardım. Əbəs yerə demirlərmiş, Naxçıvanın hər daşında bir tarix yatır.

***Rüfət Hacıyev – Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının idarə heyətinin sədri:*** – 12 il əvvəl Naxçıvanda olmuşam. Buraya qayıdandan sonra böyük dəyişikliklər görürəm. Buranın turizm potensialı var idi, ancaq gündən-günə bu potensialı üzə çıxarırlar və böyük işlər görülür. Bu mənada, müasir yol infrastrukturunun qurulmasını, yeni otellərin,



əyləncə mərkəzlərinin tikintisini qeyd edərdim. Naxçıvanın turizm cəhətdən çox maraqlı perspektivi var. Biz də turizm assosiasiyası olaraq Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti ilə görüş keçirdik və istərdik ki, bizim assosiasiyaya Naxçıvanın turizm şirkətləri də qatılsın. Belə bir fikrə gəldik ki, bizim idarə heyətinin növbəti iclasını Naxçıvanda keçirək və burada yeni üzvlərimizi, Naxçıvan turizm şirkətlərini də bizim assosiasiyaya qəbul edək. Bu barədə birgə layihələr üzərində işləyək ki, biz də öz tövsiyəmizi verək. Buranın qədim tarixi, təbiəti, özünəməxsusluğu var. Ordubadın başqa bir gözəlliyi var, Batabatın, Ağbulağın başqa. Bunun üstündə işləmək lazımdır və ümidvarıq ki, Zəngəzur dəhlizi açılandan sonra turistlər rahatlıqla gəlib bu gözəlliyi görəcəklər.

***Türkay Qasımzadə – Azərbaycan Mədəni İrsinin Qorunması və Turizmə Dəstək Assosiasiyası idarə heyətinin sədri:*** – Qədim Azərbaycan məmləkəti olan, günü-gündən müasirləşən Naxçıvan Muxtar Respublikasının böyük turizm potensialı var. Buranın coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada qədim dövrlərin yadigarı olan tarixi-memarlıq abidələri, əsrlərdən bəri qorunub saxlanılan, yaşı minilliklərə söykənən maddi mədəniyyət nümunələri bu gün də öz gözəllik və ehtişamını özündə saxlamaqdadır. Tək bir ünvandan – Azərbaycanın intibah ocağı olan Ordubad şəhərindən misal çəkmək kifayət edər ki, buradakı geniş infrastruktur, mədəniyyət hər kəsə aydın olsun. Biz dünən Ordubada səfər etdik, insanların səmimiyyətindən, qonaqpərvərliyindən çox razı qaldıq. Həmişə naxçıvanlıların səmimiyyəti, mehribanlığı dillərdə əzbər olsa da, əyani şəkildə bu deyilənləri görmək insana başqa



hisslər yaşadır. Naxçıvanlı həmkarlarımla söhbətimiz zamanı onlardan "Nəqşicahan" sözünün mənasını soruşdum. Çünki Naxçıvan dedikdə bu adın qarşılığı kimi Şərqin qapısı, Nuhçıxan, Nəqşicahan adları da yanaşı çəkilir. Verilən cavablardan aydın oldu ki, bu diyar bəşəriyyətin ikinci bünövrəsinin qoyulduğu, ilk həyat rişəsinin təşəkkül tapdığı ünvan olmaqla yanaşı, həm də öz maddi mədəniyyət nümunələri, ecazkar təbii gözəllikləri ilə fərqləndiyi üçün cahanın nəqşi adlandırılıb. Bu diyar Şərq aləmində geniş şöhrət qazanıb. Bununla yanaşı, dilə gətirməliyəm ki, Naxçıvanın rəngarəng təbiət mənzərələri, əlverişli iqlim şəraiti, mineral suları ekoturizmin inkişafını şərtləndirən başlıca amillər sırasındadır. Muxtar respublikada mövcud olan dini ziyarətgahlar, pir və imamzadələr, xüsusilə müqəddəs kitabımız "Qurani-Kərim"də bəhs edilən Əshabi-kəhf ziyarətgahı dini turizmin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində ziyarətçilər üçün hər cür şərait yaradılmışdır. Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi də turistlərin ən çox ziyarət etdikləri məkanlardan biridir. Bizlər üçün nəzərdə tutulmuş proqram çərçivəsində bu sadaladığımız ünvanların böyük bir qismində olmaq fürsətini nə yaxşı ki qazana bildik.

***Tərlan Quliyev: – "Sayahat Travel" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru:*** – Naxçıvan çox zəngin tarixə, gözəl təbiətə, yüksək iqtisadi inkişafa malik olan bir diyardır. Eyni zamanda muxtar respublikanın gözəl turizm obyektləri, ən yüksək səviyyədə qurulan infrastrukturu var. Bu da Naxçıvanın turizm məkanı kimi cazibədarlığını artırır. Daxili turizm şirkətimizin prioritet istiqamətlərindən biridir. Belə ki, son illərdə ölkəmiz bu istiqamətdə böyük addımlar atıbdır. Və bununla da xarici turistlərin ölkəmizə marağı xeyli artıb. "Sayahat Travel" şirkəti olaraq bu sahənin inkişafına töhfəmizi vermək üçün daxili turizmlə bağlı bir çox xarici turizm şirkətləri ilə sıx əməkdaşlıq edir, onlara Azərbaycanın eləcə də Naxçıvanın tarixi və onun turizm potensialı haqqında geniş məlumat veririk.

✍ Gülcamal TAHİROVA
✍ Məcid RƏŞADƏTOĞLU
✍ Aytac CƏFƏRLİ
✍ Güntac ŞAHMƏMMƏDLİ

## Naxçıvanın incisi

# Pəzməri şəlaləsi

*Qədim Naxçıvan torpağı öz təbii gözəlliyi ilə fərqlənir. Təbiətinin rəngarəngliyi ilə seçilən füsunkar diyar bu gözəlliyə biganə qalmayan hər kəsi özünə heyran buraxır. Bu qədim yurdun torpaqlarını gəzən insanları bir-birindən gözəl, ecazkar təbiət mənzərələri qarşılayır. Əzəmətli Haçadağı, füsunkar Batabatı, insanı valeh edən "üzən adası", Zor bulağı, Pəzməri şəlaləsi, Göy gölü və digər simvolları ilə muxtar respublika öz təbii gözəlliyini sərgiləyir.*



Ordubad rayonu da bölgədə, xüsusilə seçilir. Özünəməxsus iqlimi, flora və faunası ilə diqqətçəkən Ordubad torpağında əsrarəngiz təbiət abidələri var. Onlardan biri də rayonun Pəzməri kəndi yaxınlığında, son illərdə ən çox üz tutulan təbii turizm obyektlərindən olan Pəzməri şəlaləsidir. Su sərfi, axının süræti, kinetik enerjisi və gücünə görə Azərbaycanın böyük şəlalələri sırasına daxil edilir. Pəzməri şəlaləsi Zəngəzur silsiləsinin Ordubad rayonu ərazisində yerləşən Ayıçınqılı aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı Pəzməri çayının üzərində yerləşən təbiət abidəsidir. Yuxarı axarlarda kanyonvari dar, kaskadlı dərələrdən keçən çay, əsasən, bulaq və qar suları ilə qidalanır. Bu gözəl şəlalə Ayıçınqılı çayının Vənəndçaya töküldüyü yerin yaxınlığında, dəniz səviyyəsindən 2161 metr hündürlükdədir. Karbonatlı süxurlar üzərində şəlalənin nisbi hündürlüyü, təxminən, 18 metrdir. Suyun tərkibi hidrokarbonatlı, kalsiumlu, minerallaşma dərəcəsi isə 90 milliqram litrdir.

Təbii gözəlliyinə görə Azərbaycanın incilərı sırasında yer alan Ordubadın Pəzməri şəlaləsi zəngin enerji ehtiyatına malikdir. Şəlalənin ortaillik su sərfi 1,34 kubmetr/saniyə olsa da, yayın əvvəllərində su sərfi 25 kubmetr/saniyəni ötə bilir. Keçmişdə şəlalənin kinetik enerjisindən istifadə etmək məqsədilə burada su dəyirmanı qurulub və dən üyüdülüb. Pəzməri kəndinin yuxarı hissəsində olan dəyirmanın qalıqları da indiyə qədər qalır. Hazırkı dövrdə isə bu şəlalənin mövcud olduğu çayın suyundan suvarmada və içməli suya olan tələbatın ödənilməsində istifadə edilir.

Pəzməri çayının üzərindəki eyniadlı böyük şəlalədən başqa, bir neçə kiçik şəlalə də mövcuddur. Həmin şəlalələr burada olduqca gözəl bir mənzərə yaratmaqla yanaşı, həm də ərazinin turizm potensialından xəbər verir. Bu şəlalələrdən ən bolsulu olanı Qaplan şəlaləsi adı ilə də tanınır. Bu da həmin ərazidə qaplanın çox olması ilə əlaqələndirilir. Çünki bu dağlar heyvanat aləmi ilə məşhurdur. Zəngin təbiət burada dağ keçisi, ayı, canavar, porsuq və digər heyvanların, o cümlədən müxtəlif meşə quşlarının yaşamasına imkan verir. Amma ərazidə qaplanın çox olması ilə bağlı olaraq buradakı çay və şəlalə zaman-zaman bu dağ yırtıcısının adı ilə adlandırılıb.

Onu da qeyd edək ki, təkcə muxtar respublika sakinləri deyil, eləcə də vaxtaşırı,



xüsusilə də ilin yaz və yay aylarında digər bölgələrdən də insanlar məhz bu şəlalələr kompleksini görmək üçün buraya gəlirlər. Gələcəkdə bu ərazidə turizm infrastrukturunun yaradılması və ekskursiyaların, turların təşkil olunması həm bu təbiət abidələrinin daha da məşhurlaşmasına, həm də daha geniş ərazidə tanınmasına kömək edə bilər.

Ümumiyyətlə, muxtar respublikada ekoturizmin inkişafına imkan verən xeyli sayda hidroloji abidələr vardır. Bu turizm obyektlərinin imkanlarının, ümumilikdə isə Naxçıvanın təbliği, çox sayda turistin cəlb olunması deməkdir.

Qeyd etdiyimiz kimi, Pəzməri kəndindən 4-5 kilometr aralıda yerləşən bu ecazkar təbiət abidəsini görmək üçün buraya çoxlu turist gəlir. Şəlaləyə iki yerdən – həm dağların zirvəsi ilə, həm də dərələrlə yol gedir. Amma şəlalənin yanına enmək heç də asan deyil və hər adama nəsib olmur. Möhtəşəm şəlaləni görmək üçün turistlər mütləq çətin keçilən yollarla piyada getməlidirlər.

Bu problemin həlli istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında quruculuq tədbirləri çərçivəsində Vənənd-Pəzməri avtomobil yolu da yenidən qurulur. Artıq turistlər üçün əsrarəngiz gözəlliyi olan Pəzməri şəlaləsini ziyarət etmək daha asan olacaq. Ümumi uzunluğu 20 kilometr olan yolun eni 8 metrdir. Yolda 3 körpü əsaslı təmir olunub, 2 suötürücü kanal tikilib. Su keçidləri və 8800 metr suaparıcı kanalın qurulması, həmçinin burada istinad divarlarının tikilməsi və torpaqbərkitmə işləri davam etdirilir. Yoldakı qayalar texnika vasitəsilə dağıdılaraq yol yatağı genişləndirilir.

Tezliklə Pəzməri turizm bölgəsinə çevriləcək. Həyata keçirilən tədbirlər kənddə məskunlaşmanı artıracaq. Kəndə gələn turistlər üçün sakinlər tərəfindən müxtəlif xidmətlər göstərilməsi və istehsal etdikləri məhsulları satması onların maddi rifah halının daha da yaxşılaşması ilə nəticələnəcəkdir.

*Şəlalələr təbiətin ən gözəl möcüzələrindən biridir. Siz də bu möcüzələri seyr edib zövq almaq istəyirsinizsə, elə bunun əsl vaxtıdır. Yay fəslində təbiətlə təmasda olmağın ləzzətini axtaranlar, rahatladıcı şəlalə səsini eşitmək və bu gözəlliyə baxarkən ovsunlanmaq istəyənlər Pəzməri şəlaləsinə üz tuta bilərlər.*

**Ülkər HƏSƏNZADƏ**
***Naxçıvan Dövlət Universitetinin Bələdiyyə və turizm kafedrasının müəllimi***

*Milli mədəniyyətimizin daşıyıcılarından biri olan Naxçıvan mətbəxi bir-birindən ləzi təamlarla zəngindir. Bu diyarın təmiz havası, dumduru suları, əsrarəngiz təbiəti, bitki örtüyü Naxçıvan mətbəxinin rənglərində də özünü açıq-aydın göstərir. Ümumiyyətlə, Azərbaycan mətbəxi dedikdə, yalnız xörəklər, onların bişirilmə qaydaları deyil, həm də tarix, fəlsəfə, süfrə psixologiyası, adət-ənənələr, xalqın etika və estetikası və digər bu kimi amilləri ahəngdar surətdə birləşdirən mətbəx mədəniyyəti başa düşülür.*

*Naxçıvan mətbəxi*

## Süfrəmizin ən dadlı təamlarından biri – "üç bacı"



Tarixən ekoloji təmiz məhsullardan hazırlanan milli yemək və şirniyyatların şöhrəti dünyanı dolaşıb, elə indi də dolaşmaqdadır. Demək olar ki, hər bir bölgəmizdə adı eyni olan, ancaq müxtəlif formalarda bişirilən süfrə nümunələrimiz də az deyil. Bunu nəzərə alaraq mövzu ilə bağlı Şərur rayonunun İbadulla kənd sakini ***Günay Məcnunlu*** ilə həmsöhbət olduq. Eşitmişdik ki, onun hazırladığı yeməkləri hamı tərifləyir. Onunla bir neçə yemək növü barədə danışdıq. Həmsöhbətimin el arasında "üç bacı dolması" adlanan yemək barəsində dediklərini oxuculara çatdırmaq istərdik.

Günay xanım, demək olar ki, hər kəsin sevdiyi, xüsusən də yayda ağız ləzzəti ilə yediyi badımcan, bibər, pomidor dolmasının hazırlanma və bişirilmə qaydası ilə bizi tanış edərək dedi: – Bu, Azərbaycan mətbəxinin ən məşhur yeməyidir. Hər yeməyin adı, hazırlanma qaydası, istifadə olunan ərzaqlar, bütövlükdə, yurdumuzun sakinlərinin zövqünü, məişətini ifadə edir. Milli xörəklərimizin bu qədər ləzzətli olması, həm də Azərbaycan təbiətinin səxavəti sayəsində, yeməklərimizdə ərzaqların çoxçeşidli və keyfiyyətli olması ilə bağlıdır. İndi isə gəlin keçək əsas məsələyə, yəni dolmanın necə hazırlanmasına. Burada yay və qışın fərqi bir o qədər bilinmədiyi üçün mən bu dolmanı bütün fəsillərdə bişirirəm. Bunun üçün tərəvəzlər içlə doldurularaq eyni qazana yığılır. İçlik ət, soğan, pomidor, bibər və reyhandan hazırlanır. Zövqə uyğun olaraq biz bu dolmanın içinə bişmiş ləpə də əlavə edirik, beləliklə, bu zaman dolma çox ləzzətli olur. Dolmalıq badımcanların hazırlanma qaydası rayondan-rayona, hətta ailədən-ailəyə dəyişir. Kimi badımcanı əvvəlcə suda pörtür, kimi qızardır, kimi toxumunu çıxarır, kimi isə yox. Badımcanın papaq hissəsini kəsir və içini təmizləyib doldurmaqla da bişirmək olur, bir tərəfini kəsməklə hazırlayanlar da olur. Mən bu gün sizə əsl üç bacı dolmasının hazırlanmasının yolunu deyəcəyəm. Daha doğrusu, indi ki, bu dolmanın sorağı ilə gəlmisiniz, bu ləziz yeməyi Naxçıvan mətbəxinə aid üsulla elə birlikdə hazırlayaq.

Doğrusu, Günay xanımdan önlük alıb çox sevdiyim yemək növlərindən olan bu dolmanı hazırlamağa həvəslə girişdim. İlk olaraq quzu ətini qiymələyib azca suda bişirdik, sonra isə yağda qızartdıq. Daha sonra Günay xanım narın-narın doğradığım soğanı yağda qızartmağımı tapşırdı. Qızardılmış soğanı ətin üstünə tökdük. Günay xanım əvvəlcədən qaynatdığımız noxud ləpəsini içliyə əlavə edib, bunun sırf Naxçıvan mətbəxinə aid olduğunu, istənilən dolmaya vurulduğunu və yeməyə xüsusi dad verdiyini söylədi. O, həyətyanı sahələrindən yığıb gətirdiyim, yuyub narın doğradığım reyhanı, sonra istiot, duz, sarıçiçək və ya sarıkökü içliyə əlavə edərək söylədi ki, Ordubadda bu dolma içliyinə qızılgül ləçəyi də vurulur. Söhbət zamanı öyrəndim ki, bəzi bölgələrdə badımcanın içərisi çıxarılıb doğranır, yağda qızardılır, üzərinə pomidorun içi doğranıb vurulur, qiymeyə əlavə edilir.

Sonra badımcanları soyub, baş tərəfdən bir balaca qapaq üçün kəsib, içini oyduq. Günay xanım badımcanların üzərinə və içinə duz, istiot, sarıkök qarışımından sürtdü, onları süzgəcə yığdı. Maraqla baxdığımı görüb izah etdi ki, bu onun üçündür ki, badımcanların acı suyu çıxsın. Onda badımcanlar həm dadlı olur, həm də görünüşcə gözəl görsənir, qaralmır, kəhrəba rəngində olur. Onu da əlavə etdi ki, badımcanlar bəzən yağda azca qızardılır. Şirin, ətli bibərləri yuyub, qapağını kəsdik, toxumlarını təmizlədik. Yuduğumuz pomidorları saplaqlı tərəfdən kəsmək istədiyimi görən Günay xanım ətli tərəfdən qapaq kəsməyi, özü də üzərinə bitişik saxlamağı məsləhət gördü və dedi ki, belə olanda pomidorlar əzilməz, içlərini təmizləmək də asan olar. Hazır qiyməni badımcan, bibər və pomidorların içərisinə doldurub qapaqları ilə örtdük, geniş qazana və ya ləyənə düzdük. Günay xanım əzilməməsi üçün pomidorları üstə qoydu, pomidordan çıxan içliyin bir hissəsini ləyənin dibinə tökdü. Daha sonra üzərinə yarım stəkan su töküb dolmaların, təxminən, 35-40 dəqiqə ərzində vam odda bişməsini gözlədik.

Ətri eyvanı bürüyən yeməkdən iştaha ilə yedik. Nahar zamanı milli mətbəximizin yaz-yay aylarında bişirilən növlərindən, onlara xüsusi dad-ləzzət verən Naxçıvan göyərtilərindən maraqlı söhbət etdik.

*Bu səfərimdən bir daha belə qənaətə gəldim ki, hər bir xalq üçün onun milli mətbəxinin zənginliyi çox böyük nemətdir. Ona görə də milli mətbəximizi daim qorumalı, dadlı yeməkləri yad mətbəxlərdə yox, elə öz doğma torpağımızın ruzi-bərəkətində, zəngin süfrəsində axtarmalıyıq. Süfrələrimizdəki bu dadı, tamı qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək isə hər birimizin vətəndaşlıq borcudur.*

**Aytac CƏFƏRLİ**

## Sertifikatlar təqdim olunub



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən ixtisaslı kadrların hazırlanması, işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri diqqətdə saxlanılır. Bu məqsədlə onlayn kurslar təşkil olunur, təlimlər keçirilir, müvafiq peşə ixtisasına malik olmayan əməkdaşların ixtisasartırma kurslarına cəlbi təşkil olunur. Bu tədbirlərin məntiqi davamı olaraq nazirliyin 2022-ci il iş planına əsasən Culfa, Şahbuz və Kəngərli rayon rabitə idarələrinin müvafiq peşə ixtisasına malik olmayan rabitə mütəxəssisləri ixtisasartırma kurslarına cəlb olunublar. Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən həmin kursları bitirən 17 müdavimə sertifikatlar təqdim olunub.

Kabel xətlərinin quraşdırılması və təmiri üzrə montyor kurslarında rabitə avadanlıqlarının əsasları, paylayıcı şkaf və kabel qurğularının montajı, elektrotexnika, əməyin mühafizəsi, peşə etikası barədə dərslər tədris olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Seminar keçirilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Naxçıvan Şəhər Məhkəməsinin inzibati binasında muxtar respublikanın birinci instansiya məhkəmələrinin aparatlarında çalışan və məhkəmə statistikasının aparılmasına məsul olan işçilər üçün seminar təşkil edilib.

Məlumat verilib ki, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada hər yarım ildə bir dəfədən az olmayaraq məhkəmələr tərəfindən statistik hesabatlar tərtib edilərək Ədliyyə Nazirliyinə təqdim edilir. Nazirlik də, öz növbəsində, bu sahədə olan yenilikləri və bilikləri təkmilləşdirmək məqsədilə hər hesabat dövründə seminarlar təşkil edir. Vurğulanıb ki, məhkəmə statistikasının aparılması hesabat dövrü ərzində məhkəmələrin icraatında olan işlərin ümumiləşdirilməsinin aparılması, təhlil edilməsi və onların təsnifatının müəyyənləşdirilməsini nəzərdə tutur.

Seminarda mövzu ilə bağlı geniş müzakirələr aparılıb, nazirliyin əməkdaşları tərəfindən məhkəmə işçilərinə statistik hesabatların işlənməsi qaydaları geniş şəkildə izah edilib, iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib, onlara yarım ilin sonu ilə əlaqədar istifadə edilməsi üçün statistik hesabat formaları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 563